**AUDİT 2025, 4 (50), səh. 132-142.**
**AUDIT 2025, 4 (50), pp. 132-142.**
**АУДИТ 2025, 4 (50), стр. 132-142.**

**DOI: 10.59610/bbu4.2025.4.13**

*Cavadov Anar İlyas oğlu,*
*hüquq üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Şamaxı filialının baş müəllimi,*
*Milli Aviasiya Akademiyasının baş müəllimi,*
*ORCID ID: 0009-0007-0929-6310*
*E-mail: vekil_anar@mail.ru*
*© Cavadov A.İ., 2025*

**UOT: 343.85**
**JEL: K14, K31**

# POSTSOVET MƏKANINDA CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB EDİLMƏYƏ İMKAN VERƏN YAŞ HƏDDİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – yetkinlik yaşına çatmayanların törətdikləri cinayətkarlığın yaranmasının və təşəkkül tapmasının müqayisəli təhlilini təmin etməkdir.

**Tədqiqatın metodologiyası** – tədqiqatda yetkinlik yaşına çatmayanların törətdikləri cinayət əməllərinə dair mövcud statistik məlumatlar əsasında təhlillər aparılmışdır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqat zamanı əldə edilmiş nəticələr hüquq-mühafizə fəaliyyətində nəzəri və praktiki material olaraq istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – yetkinlik yaşına çatmayanların törətdikləri cinayətkarlığın elmi tədqiqi yolu ilə əldə olunmuş elmi məlumatları təhlil edib qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – bu tədqiqat yetkinlik yaşına çatmayanların törətdikləri cinayətkarlığın göstəricilərinin yeni təfəkkür tərzinə uyğun analizini əks etdirir.

**Açar sözlər:** postsovet, cinayət tərkibi, 14 yaş, cinayət məcəlləsi, məsuliyyət, əməl, yetkinlik yaşına çatmayanlar.

## G İ R İ Ş

Cinayət hüququnun toxunduğu bütün məsələlər, ölkənin ictimai həyatı üçün təhlükəli olan əməllərin cinayət olması və cinayətə görə cəzanın verilməsi ilə bağlı münasibətlərdən yaranır. Bu münasibətlərin bir tərəfində cinayət törətmiş şəxs, digər tərəfində isə həmin şəxsi cəzalandırmağa səlahiyyətli olan dövlət durur. Göstərilən münasibətlər hüquq normaları ilə tənzimlənir. Bu normaların məcmusu cinayət hüququnu yaradır. Cinayət hüququ cinayət və cəza ilə bağlı olaraq cinayət törətmiş şəxslə dövlət arasında yaranan münasibətlərin tənzimləyən hüquq normalarının məcmusudur. Hər bir sahə kimi cinayət hüququnun da üzərinə müəyyən vəzifələr düşür. Cinayət hüququnun əsas və başlıca vəzifəsi cəmiyyəti nisbətən təhlükəli cinayətlərdən qorumaqdan ibarətdir. Cinayət hüququnun qoruyucu vəzifəsinin mahiyyəti onun sülhün və insanlığın təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayət əməlindən qorumaqdan ibarətdir. Bunların içərisində şəxsiyyətin, onun hüquq və azadlıqlarinin qorunması vəzifəsi mühüm yer tutur. Hüquqi demokratik dövlətlərdə cinayət hüquqi

AUDİT 2025, 4 (50), səh. 132-142.
AUDIT 2025, 4 (50), pp. 132-142.
АУДИТ 2025, 4 (50), стр. 132-142.

ilk növbədə insan hüquq və azadlıqlarını qorunmasını təmin etməlidir. Cinayət hüququnu təşkil edən hüquq normaları zahirən cinayət qanununda ifadə olunmuşdur.

Cinayət qanununun yaranmasında Azərbaycan Respublikasının Konstitusiyası hüquqi əsas rolunu oynayır. Konstitusiya bütün qanunvericiliyin, o cümlədən cinayət qanunvericiliyinin normativ bazasıdır. burada nəzərdə tutulan bir sıra normaların cinayət qanunvericiliyi üçün mühüm və vacib (müəyyənedici) əhəmiyyəti və rolu vardır (məsələn, hamının qanun və məhkəmə qarşısında bərabər olması barədə norma və s.). Cinayət hüququnun mənbəyi cinayət qanunudur, yalnız cinayət qanunu cinayət hüquq norması müəyyənləşdirə bilər. Cinayət qanunu cinayət hüququnun əsas mənbəyidir. Cinayət qanunundan başqa, normativ aktların digər növləri (prezident fərmanları, Nazirlər Kabinetinin qərarları, nazirliklərin təlimatları və əmrləri və s.) cinayət hüquq norması müəyyənləşdirə və cinayət hüququnun mənbəyi ola bilməz. Demokratik hüquqi dovlətlərdə məsələyə məhz bu cür yanaşılır. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi Cinayət Məcəlləsi ilə əhatə olunur. Cinayət Məcəlləsi dedikdə, hər şeydən əvvəl Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi başa düşülür. Burada cinayət hüquq normalarının bütövlükdə hamısı ifadə olunmuşdur. Cinayət Məcəlləsi Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyini əhatə edən və özündə bütün cinayət hüquq normalarının hamısını əks etdirən sistemləşdirilmiş normativ akt başa düşülür. Əsas cinayət qanunu Azərbaycan Respublikasının Cinayət Məcəlləsi hesab edilir. Cinayət Məcəlləsi 1999-cu il dekabrın 30-da qəbul olunmuş, 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir. Azərbaycan CM-in hazırlanmasında 13 may 1995-ci ildə MDB-nin iştirakçı dövlətlərinin Parlamentlərarası Assambleyasının qətnaməsi ilə qəbul olunan Model Cinayət Məcəlləsindən istifadə olunmuşdur. Ona görə bu məcəllə öz strukturu və məzmununa görə postsovet ölkələrinin cinayət məcəllələrinə yaxındır [1]. Məlumdur ki, hazırda cinayət hüququnda yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti və cəzası mühüm bir mövzu olmaqla, Postsovet ölkələrində də bu məsələni tənzimləyən normaların və müddəaların müqayisəli-hüquqi analizini gündəmə gətirir.

**Postsovet məkanında cinayət məsuliyyətinə cəlb edilməyə imkan verən yaş həddinin müqayisəli tədqiqi**

Bəşəriyyətin hazırkı yeni inkişaf mərhələsinə, özünün siyasi sabitlik, iqtisadi yüksəliş və sosial rifah dövrünə qədəm qoyan müstəqil Azərbaycan Respublikasının prioritet vəzifələrindən biri də cinayətkarlıqla, o cümlədən yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizənin gücləndirilməsi, onların kriminal əməllərin qarşısının alınmasının elmi zəmin əsasında təşkili, sosial nəzarət orqanlarının bu sahədə fəaliyyətlərinin səmərəliliyinin artırılmasıdır. Yeni sosial-iqtisadi və hüquqi münasibətlər şəraitində, qloballaşan dünyada cinayətkarlığın, o cümlədən yetkinlik yaşına çatmayanların cinayətkarlığının ən təhlükəli növlərinin və formalarının vəziyyəti, strukturu və dinamikasında kəmiyyət və keyfiyyət xarakterli neqativ dəyişmələr baş vermiş, cinayətkarların peşəkarlıq səviyyələri xeyli artmış, kriminal fəaliyyətdə elm və texnikanın son nailiyyətlərindən, müasir texnologiyalardan, telekommunikasiya vasitələrindən, kompyuter-informasiya sistemlərindən və onların şəbəkələrindən geniş istifadə edilməyə başlanmışdır. Bütün bunlar isə cinayətkarlıqla, o cümlədən yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizənin təşkilati-hüquqi, elmi-metodiki əsaslarının yaradılmasında kriminoloji biliklərdən daha geniş və hərtərəfli şəkildə istifadə edilməsi zəruriliyini şərtləndirir. Mövcud kriminogen şərait hüquq-mühafizə orqanlarının yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizə üzrə fəaliyyətində müasir üsulların, metodların və vasitələrin tətbiqini, yaranmış problemlərin həllinə

**AUDİT 2025, 4 (50), səh. 132-142.**
**AUDIT 2025, 4 (50), pp. 132-142.**
**АУДИТ 2025, 4 (50), стр. 132-142.**

adekvat yanaşmaların işlənib hazırlanmasını tələb edir. Yetkinlik yaşına çatmayanların cinayətkarlığının kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikası belə yanaşmalardan hesab edilə bilər. Yetkinlik yaşına çatmayanların cinayətkarlığının gələcək vəziyyəti, onun struktur və dinamikasını, sosial-iqtisadi, demoqrafik, coğrafi, təşkilati, texniki və s. xarakterli amillərdən, şəraitlərdən irəli gələn səbəbiyyət kompleksini adekvat əks etdirən kriminoloji proqnozlaşdırmanın aparılması və bu əsasda proqnozların qurulması cinayətkarlıqla mübarizənin strateji bazasını möhkəmləndirir, hər bir ölkənin mövcud spesifik xüsusiyyətləri nəzərə almaqla yetkinlik yaşına çatmayanların cinayətkarlığının ayrı-ayrı ən təhlükəli növləri və formaları ilə effektiv mübarizəni təşkil etməyə imkan verir. Postsovet məkanın hər bir ölkəsində yetkinlik yaşına çatmayanların cinayətkarlığının ayrı-ayrı növlərini determinə edən amillər kompleksinin sistemli şəkildə öyrənilməli, kriminogen və antikriminogen amillər qrupunun müəyyən edilməli və bu əsasda cinayətkarlığa qarşıdurma üzrə elmi cəhətdən əsaslandırılmış ümumsosial və xüsusi-kriminoloji tədbirlər işlənib hazırlanmalı, bu növ cinayətkarlığın proqnozlaşdırılması və profilaktikası üzrə kompleks proqramlar, fəaliyyət planları, strategiyalar, konsepsiyalar hazırlanmalı və həyata keçirilməlidir.

Hazırkı qloballaşma dövründə cəmiyyət üçün müəyyən sosial, iqtisadi və sair xarakterli problemlər doğuran cinayətkarlıq, o cümlədən yetkinlik yaşına çatmayanların cinayətkarlığı da mürəkkəb, çoxaspektli çalarlar daşıyan, dövlət, cəmiyyət və vətəndaş üçün böyük təhlükə kəsb edən ən ciddi sosial-hüquqi problemlərdən birinə çevrilmişdir. Aparılmış kriminoloji tədqiqatlar və təhlillər yetkinlik yaşına çatmayanların cinayətkarlığının kriminoloji şərait ayrı-ayrı ölkələr səviyyəsində fərqləndiyini və bu fərqlərin inzibati-ərazi vahidlərinin, ərazi birliklərinin iqtisadi, sosial, demoqrafik, mədəni, coğrafi və digər aspektlərinin inkişafı səviyyəsindən və xüsusiyyətlərindən irəli gəldiyini göstərir. Digər sosial davranış növləri kimi cinayətkarlıq da «coğrafilik» xassəsinə malikdir və insanları əhatə edən coğrafi, sosial, iqtisadi, demoqrafik, mədəni və s. şəraitlərlə bağlıdır. Postsovet məkanının müxtəlif inzibati-ərazi vahidləri, iqtisadi rayonlar və meqapolis şəhərlər çərçivəsində yetkinlik yaşına çatmayanların cinayətkarlığını şərtləndirən hadisələri sistemli şəkildə, kriminoloji baxımdan öyrənilməsi, konkret ölkə səviyyəsində onun struktur elementləri, alt sistemləri olan ayrı-ayrı cinayət növlərinin qarşısının alınması və profilaktikası üzrə ümumsosial və xüsusi-kriminoloji tədbirlər kompleksinin işlənib hazırlanması üçün böyük əhəmiyyət kəsb edir.

Hazırkı dövrə qədər yetkinlik yaşına çatmayanların cinayətkarlığının proqnozlaşdırılması ilə bağlı bir çox problemlər kompleksi nəzəri və metodoloji baxımdan elmi tədqiqatların obyekti olmamış, bəzi problemli məsələlər isə ümumiyyətlə diqqətdən kənarda qalmışdır. Halbuki, son illərdə yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizə mövzusunun elmi cəhətdən işlənib hazırlanmasında bu problem böyük çəki yığmaqdadır. Digər possovet məkanı ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da yetkinlik yaşına çatmayanların cinayətkarlığının xüsusiyyətləri kifayət edəcək səviyyədə tədqiq edilməmiş, istər bütövlükdə, istərsə də onun ayrı-ayrı hissələrində təzahür edən cinayətkarlığın, onun ayrı-ayrı növlərinin səbəblərinin, xüsusiyyətlərinin, inkişafının yeni meyllərinin araşdırıldığı tədqiqat işlər praktiki olaraq çox aşağı səviyyədədir. Bütün bunlar Azərbaycanda yetkinlik yaşına çatmayanların cinayətkarlığının elmi analizinin metodologiyasının və metodiki əsaslarının işlənib hazırlanmasına istiqamətlənən kompleks tədqiqatların aktuallığını şərtləndirir. Müasir cinayətkarlıq, o cümlədən yetkinlik yaşına çatmayanların cinayətkarlığı ildən ilə daha da kəskin azğın xarakter alır. Cəmiyyətdə mövcud olan bir sıra sosial, demoqrafik və iqtisadi problemlər (natamam ailələrin sayının artması, məktəb və peşə təhsili sahəsində böhran, narkomaniya, nizamlanmamış miqrasiya, işsizlik və s.) küçə

**AUDİT 2025, 4 (50), səh. 132-142.**
**AUDIT 2025, 4 (50), pp. 132-142.**
**АУДИТ 2025, 4 (50), стр. 132-142.**

cinayətkarlığının və ailə-məişət zəminində baş verən cinayətlərin orbitinə getdikcə daha böyük sayda yeniyetmələrin və gənclərin cəlb olunmasına gətirir. Bu baxımdan yetkinlik yaşına çatmayanların cinayətkarlığının mühüm elementi kimi cinayət məsuliyyətinə cəlb edilmənin aşağı həddinin daha da optimallaşdırılması məqsədilə possovet ölkələrində yetkinlik yaşına çatmayanların cinayətkarlığının müqayisəli təhlili də öz aktuallığını ön plana çəkir. Postsovet məkanında yetkinlik yaşına çatmayanların cinayətkarlığının müqayisəli təhlilinə keçməklə bu mövzunun tədqiqinə keçək.

Qırğızıstan Respublikasının 28 oktyabr 2021-ci il tarixli CM-in Ümumi hissəsinə daxil edilmiş və "cinayət məsuliyyətinin başladığı yaş" adlanan 28.1-ci maddəsində qeyd edilir ki, cinayət törədənə qədər 16 yaşına çatmış şəxs cinayət məsuliyyətinə cəlb edilir. Bu ölkənin CM-in 28.2-ci maddəsinə uyğun olaraq 14 yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürmə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurma, zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, adam oğurluğu, insan alveri, oğurluq, ağırlaşdırıcı hallarda mal-qara oğurluğu, soyğunçuluq, quldurluq, hədə-qorxu ilə tələb etmə, nəqliyyat vasitələrini qaçırma, ağırlaşdırıcı hallarda özgə əmlakını qəsdən məhv etmə və ya zədələmə, ağırlaşdırıcı hallarda adamları girov götürmə, ağırlaşdırıcı hallarda xuliqanlıq, odlu silahı talama və ya hədə-qorxu ilə tələb etmə, satış məqsədilə narkotik vasitələri, psixotrop maddələri və onların analoqlarını qanunsuz hazırlama, narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma kimi əməlləri törətdiyinə görə cinayət məsuliyyətinə cəlb edilir (25 cinayət tərkibi).

Göründüyü kimi, Azərbaycan qanunvericiliyindən fərqli olaraq, Qırğızıstanda cinayət törədərkən 14 yaşı tamam olmuş şəxslər, həmçinin ağırlaşdırıcı hallarda mal-qara oğurluğu və satış məqsədilə narkotik vasitələri, psixotrop maddələri və onların analoqlarını qanunsuz olaraq hazırlama kimi cinayətlərə görə də cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Belarus Respublikasının 09 iyul 1999-cu il tarixli CM-in 27.1-ci maddəsində cinayət məsuliyyətinə cəlb edilməyə imkan verən yaş həddi ümumən 16 yaş müəyyən edilmişdir. Eyni zamanda ölkə qanunvericisi, bir sıra əməllərə görə 14 yaşdan cinayət məsuliyyətinin yarandığını da nəzərdə tutmuşdur. Belarus CM-də belə əməllərə (cəmi 26 tərkib), Azərbaycan CM-in 20.2-ci maddəsində qeyd olunanlarla yanaşı, həm də ehtiyatsızlıqdan adam öldürmə (Belarus CM-in 144-cü maddəsi), komputer informasiyasını modifikasiya etməklə özgə əmlakını talama (CM-in 212-ci maddəsi), ağırlaşdırıcı hallarda narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və ya analoqlarının qanunsuz dövriyyəsi (328.2, 328.3, 328.4, 328.5-ci maddələr) təhlükə barədə qəsdən yalan məlumat vermə (340-cı maddə), vandalizm (341-ci maddə), azadlıqdan məhrum etmə növündə cəzanın icra olunduğu islah müəssisəsindən, ev dustaqlığından qaçma (413-cü maddə) kimi cinayətlər də aid edilmişdir.

Qazaxıstan Respublikasının 3 iyul 2014-cü il tarixli CM-in 15.1-ci maddəsinə əsasən cinayət törədənədək 16 yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. Ölkə qanunvericisi bir sıra əməllərə görə (cəmi 44 tərkib) 14 yaşı cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi kimi müəyyən etmişdir. Azərbaycan qanunvericiliyindən fərqli olaraq bu ölkənin CM-də beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə (Qazaxıstan CM-in 173-cü maddəsi), sosial, milli, cinsi, irqi və ya dini düşmənçilik salma (maddə 174), ölkənin birinci Prezidentinin həyatına qəsd etmə (maddə 177), Qazaxıstan Respublikası Prezidentinin həyatına qəsd etmə (maddə 178), təxribat (maddə 184), ağırlaşdırıcı hallarda mal-qara oğurluğu (maddə 188-1), ağırlaşdırıcı hallarda xüsusi dəyəri olan predmetləri qəsdən məhv etmə, zədələmə və ya ölkədən çıxarma (maddə 203), terrorizmin təbliği və ya terrorizm aktını həyata keçirməyə

AUDİT 2025, 4 (50), səh. 132-142.
AUDIT 2025, 4 (50), pp. 132-142.
АУДИТ 2025, 4 (50), стр. 132-142.

açıq çağırışlar (maddə 256), terrorçu qrup yaratma, ona rəhbərlik etmə və ya onun fəaliyyətində iştirak etmə (maddə 257), terrorçuluq və ya ekstremist fəaliyyəti maliyyələşdirmə və ya terorizmə, ekstremizmə digər şəkildə kömək etmə (maddə 258), binalara, tikililərə, rabitə vasitələrinə hücum etmə və ya onları ələ keçirmə (maddə 269), terrorizm aktı haqqında bilə-bilə yalan məlumat vermə (maddə 273), ağırlaşdırıcı hallarda qəbir üzərində təhqiredici hərəkətlər (maddə 314) kimi cinayətlərin törədilməsi halında cinayət məsuliyyətinin 14 yaşdan yarandığı nəzərdə tutulmuşdur.

Bu isə Azərbaycanla müqayisədə, Qazaxıstan CM-də 14 yaşdan cinayət məsuliyyətinin yarandığı cinayətlərin sayının əhəmiyyətli dərəcədə çox olduğunu göstərir. Məsələn, bu ölkə qanunvericisi terror fəaliyyəti ilə bağlı olan demək olar ki, bütün əməllərə görə cinayət məsuliyyəti yaşını 14 yaş olaraq müəyyən etmişdir.

Tacikistan Respublikasının 21 may 1998-ci il tarixli CM-in 23.1-ci maddəsində cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi olaraq 16 yaş müəyyən edilmişdir. Eyni zamanda CM-in 23.2-ci maddəsində bir sıra cinayətlərə görə cinayət məsuliyyəti yaradan yaş həddi olaraq 14 yaş nəzərdə tutulmuşdur. Azərbaycan qanunvericiliyindən fərqli olaraq, ölkə qanunvericisi həmçinin satış məqsədilə narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi (maddə 200), tərkibində narkotik maddə olan və becərilməsi qadağan edilən bitkilərin kultivasiyası (maddə 204), satış məqsədilə güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi (maddə 206) kimi əməllərə görə cinayət məsuliyyətinin 14 yaşdan etibarən yarana bilməsini mümkün hesab etmişdir. Ümumilikdə bu maddədə 24 belə cinayət tərkibi nəzərdə tutulmuşdur.

Ukrayna CM-də də cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş olaraq 16 yaş müəyyən edilmiş (maddə 22.1), eyni zamanda bəzi cinayətlərə görə yaşı 14-dən 16-ya qədər olan şəxslərin də cinayət məsuliyyətinə cəlb edilməsi nəzərdə tutulmuşdur. Belə əməllərə qəsdən adam öldürmə (maddə 115), güclü ruhi həyəcan (affekt) vəziyyətində qəsdən adam öldürmə (maddə 116), ananın yeni doğulmuş uşağı qəsdən öldürməsi (maddə 117), dövlət və ya ictimai xadimin, hüquq-mühafizə orqanı əməkdaşının, ictimai qaydanın və ya dövlət sərhədinin mühafizəsi üzrə ictimai qurumun üzvünün və ya hərbi qulluqçunun, hakimin ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı fəaliyyətinə, hüquqi yardım göstərməklə bağlı fəaliyyətə görə müdafiəçinin, xarici dövlətin nümayəndəsinin həyatına qəsd etmə (CM-in 112, 348, 379, 400 və 443-cü maddələri), ağırlaşdırıcı hallarda hüquq-mühafizə orqanının əməkdaşına, jurnalistə, vəzifəli şəxsə, hakimə, vəkilə münasibətdə zorakılıq və ya hədə-qorxu gəlmə (345, 346, 350, 377, 398-ci maddələr), heyvanlarla qəddar rəftar etmə (maddə 299), təxribat (maddə 113), banditizm (maddə 257), seksual zorakılıq (maddə 153), qatarı, hava, dəniz və ya çay gəmisini qaçırma və ya ələ keçirmə (maddə 278) aid edilmişdir (cəmi 18 tərkib).

Təhlil göstərir ki, Azərbaycanla müqayisədə bu ölkədə əlavə olaraq daha bir sıra cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilmə yaşı olaraq 14 yaş müəyyən edilmişdir (məsələn, affekt vəziyyətində qəsdən adam öldürmə, ananın yeni doğulmuş uşağı qəsdən öldürməsi, xarici dövlət nümayəndəsinin həyatına qəsd etmə və s.).

Türkmənistanın 12 iyun 1997-ci il tarixli CM-in 19.2-ci maddəsində cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi olaraq 16 yaş müəyyən edilmiş, bununla belə bir sıra cinayətlərə görə (14 cinayət tərkibi) cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi olaraq 14 yaş müəyyən edilmişdir. Azərbaycan qanunvericiliyindən fərqli olaraq bu ölkənin CM-in 19.3-cü maddəsində 14-16 yaşda olan şəxslərin uşaqbazlıq (133.4-cü maddə), radioaktiv və ya nüvə materiallarını talama və ya hədə qorxu ilə tələb etmə (maddə 320), satış məqsədilə narkotik

AUDİT 2025, 4 (50), səh. 132-142.
AUDIT 2025, 4 (50), pp. 132-142.
АУДИТ 2025, 4 (50), стр. 132-142.

vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə (maddə 327) əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur.

Rusiya Federasiyasının 13 iyun 1996-cı il tarixli CM-in 20.1-ci maddəsində də cinayət törədərkən 16 yaşı tamam olmuş şəxs barəsində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Bu ölkənin CM-in 20.2-ci maddəsində 32 cinayət tərkibi üzrə 14 yaş cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi hesab edilmişdir. Rusiya qanunvericisi, Azərbaycan CM-in 20.2-ci maddəsində nəzərdə tutulan əməllərlə yanaşı, bu kateqoriyalı cinayətlərə həmçinin terrorçuluq fəaliyyətini həyata keçirmək məqsədilə təlim keçmə (maddə 205-3), terrorçu birlikdə iştirak etmə (maddə 205.4.2), terrorçu təşkilatın fəaliyyətində iştirak etmə (maddə 205.5.2), cinayət haqqında xəbər verməmə (maddə 205-6), terrorizm aktı haqqında bilə-bilə yalan məlumat vermə (maddə 207), qanunsuz silahlı birləşmədə iştirak etmə (maddə 208.2), hava və ya su gəmisini və ya dəmir yolu qatarını qaçırma (maddə 212.2), vandalizm (maddə 214), partayıcı maddə və ya partlayıcı qurğuları qanunsuz əldə etmə, vermə, satma, saxlama, daşıma və ya göndərmə (maddə 222-1), partayıcı maddə və ya partlayıcı qurğuları qanunsuz olaraq hazırlama (maddə 223-1), dövlət və ya ictimai xadimin həyatına qəsd etmə (maddə 277), beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya binalara hücum etmə (maddə 360), beynəlxalq terrrizm aktını (maddə 361) aid etmişdir.

Yalnız Özbəkistan Respublikası CM-də cinayət törədilərkən 18 yaşı tamam olmuş şəxslər barədə cinayət məsuliyyətinin nəzərdə tutulduğu cinayətlərin dairəsi müəyyən olunmuşdur (Özbəkistan CM-in 17-ci maddəsi).

Beləliklə, deyə bilərik ki, əksər postsovet ölkələrində cinayət məsuliyyətinə cəlb etməyə imkan verən iki yaşı – 16 (ümumi) və 14 (xüsusi) nəzərdə tutulduğu halda, Özbəkistan cinayət qanunvericiliyində 18 yaş kimi üçüncü (ikinci xüsusi) yaş qrupu da müəyyən edilmişdir. Belə ki, bu ölkənin CM-in 17.3-cü maddəsinə uyğun olaraq uşaqlara və valideynlərə kömək etməkdən qərəzli yayınma (122 və 123-cü maddələr), nikah yaşı və nikahın bağlanması haqqında qanunvericiliyi pozma (maddə 125-1), ailə (məişət) zorakılığı (maddə 126-1), yetkinlik yaşına çatmayanı antisosial davranışa cəlb etmə (maddə 127), dilənçilik (maddə 127-1), maddi vəsait, əmlak və ya digər fayda təqdim etməklə yaşı 16-dan 18-dək olan şəxslərlə cinsi əlaqəyə girmək (maddə 128-1), dini əqidə azadlığını pozma (maddə 144), seçkiləri, referendumları təşkil etmə və keçirmə haqqında qanunvericiliyi pozma (maddə 146), ekoloji təhlükəsizlik normalarını və tələblərini pozma (maddə 193), ətraf mühitin çirkləndirilməsi haqqında məlumatları qəsdən gizlətmə və ya təhrif etmə (maddə 194), ətraf mühitin çirklənməsi nəticələrinin aradan qaldırılması üzrə tədbirlər görməmə (maddə 195), vəzifədən və ya qulluq səlahiyyətlərindən sui-istifadə (maddə 205), hakimiyyət və ya vəzifə səlahiyyətlərini aşma (maddə 206), vəzifə saxtakarlığı (maddə 209), rüşvət alma (maddə 210), hərbi və ya alternativ xidmətdən yayınma (maddə 225), inzibati nəzarət qaydalarını pozma (maddə 226), təqsiri olmayanı məsuliyyətə cəlb etmə (maddə 230), qanunsuz olaraq hökm, digər qərar və ya qərardan çıxarma (maddə 231), məhkəmə aktını icra etməmə (maddə 232), qanunsuz olaraq tutma, həbsə alma (maddə 234), işgəncə, digər qəddar, qeyri-insani rəftara məruz qoyma (maddə 235), hərbi xidmət əleyhinə olan cinayətlər (CM-in 279-302-ci maddələri) kimi cinayətlərin subyekti qismində yalnız yaşı 18 olan şəxslər müəyyən olunmuşdur.

Postsovet ölkələri arasında yalnız Belarusda 14 yaşdan cinayət məsuliyyətinin yaratdığı cinayətlərin dairəsində ehtiyatsızlıq törədilən cinayət də daxil edilmişdir və bu cinayət ehtiyatsızlıqdan adam öldürmədir.

AUDİT 2025, 4 (50), səh. 132-142.
AUDIT 2025, 4 (50), pp. 132-142.
АУДИТ 2025, 4 (50), стр. 132-142.

Müqayisəli-hüquqi analiz əsasında deyə bilərik ki, 14 yaşdan başlayaraq cinayət məsuliyyətinin yarandığı ən az cinayət tərkibi Türkmənistanda (13), ən çox isə Ukraynada (48) nəzərdə tutulmuşdur (bax: cədvələ).

*Cədvəl 1.*

**Postsovet ölkələrinin cinayət məcəlləsinin norması və cinayət məsuliyyətinin 14 yaşdan sonra yarandığı cinayətlərin sayına – görə statistik məlumatlara dair**

| Postsovet ölkələrinin cinayət məcəlləsinin norması | CM-də törədilməsinə görə cinayət məsuliyyətinin 14 yaşdan yarandığı cinayətlərin sayı |
|---|---|
| Azərbaycan (CM 20.2-ci maddə) | 17 |
| Belarus (CM 27.2-ci maddə) | 24 |
| Qazaxıstan (CM 15.2-ci maddə) | 30 |
| Qırğızıstan (CM 30.2-ci maddə) | 20 |
| Moldova (CM 21.2-ci maddə) | 40 |
| Tacikistan (CM 23.2-ci maddə) | 23 |
| Türkmənistan (CM 21.2-ci maddə) | 13 |
| Özbəkistan (CM 17-ci maddə) | 21 |
| Ukrayna (CM 22.2-ci maddə) | 48 |
| RF (CM 20.2-ci maddə) | 32 |

Qeyd edək ki, RF-nın 1996-cı il tarixli CM-də 14 yaşdan başlayaraq cinayət məsuliyyətinin nəzərdə tutulduğu cinayətlərin sayı 20 olduğu halda, onların sayı 2020-ci ildə 30-a, 2024-cü ildə isə 32-ə çatmışdır.

N. Andryuxina hesab edir ki, cinayətin subyektinin 14 yaş kimi minimal yaş həddi müəyyən olunduğu cinayət əməllərinin dairəsinin daima genişlənməsi yetkinlik yaşına çatmayanlara münasibətdə cinayət siyasətinin humanistləşdirilməsinə ziddir və açıq şəkildə göstərir ki, müasir şəraitlərdə yetkinlik yaşına çatmayanların erkən kriminallaşmasına qarşıdurmada cinayət-hüquqi vasitələrin rolu xeyli dərəcədə şişirdilmişdir [2, c.10].

Bir sıra postsovet ölkələrinin qanunvericiləri tərəfindən 14 yaşda cinayət məsuliyyətinin yarandığı cinayətlərin siyahısına əlavələrin edilməsi haqqında çıxarılan qərarların bütün hallarda elmi cəhətdən əsaslandırıldığını deyə bilmərik. Belə qərarların bəziləri praktiki əsaslılıq nöqteyinəzərindən də ciddi suallar doğurur. Belə bir nəticənin təsdiqi kimi göstərmək olar ki, RF-nın 6 iyul 2016-cı il tarixli Federal Qanunu ilə eyni zamanda 11 cinayətə görə cinayət məsuliyyəti yaşı 16-dan 14-ə salınmışdır. Bu layihəyə əlavə olunan izahedici qeydlərdə onun müəllifləri tərəfindən bu məsələdə "ciddi qanunvericilik boşluğunun" mövcudluğu qeyd olunmuş və hansı əsaslara görə 14 yaşdan oğurluğa görə cinayət məsuliyyəti yarandığı halda, terrorçu birlik təşkil etmə əməlinə görə 14 yaşda cinayət məsuliyyətinin yarandığı göstərilməmişdir.

Aydındır ki, 14 yaşdan cinayət məsuliyyətinin yalnız əməlin təhlükəlilik əlamətinə və motivlərinə görə müəyyən edilməsi və ya bu əsasda 16-dan 14-ə kimi aşağı salınması düzgün deyildir. Hamıya məlumdur ki, qanunverici tərəfidən 14 yaşından başlayaraq cinayət məsuliyyəti nəzərdə tutulan cinayətlərin ictimai təhlükəlilik dərəcəsi yüksək olan cinayətlər olmasa da bu

AUDİT 2025, 4 (50), səh. 132-142.
AUDIT 2025, 4 (50), pp. 132-142.
АУДИТ 2025, 4 (50), стр. 132-142.

əməllər bu yaşa çatmış şəxs üçün açıq-aşkar və aydındır [3]. Əgər bu belə olmazdırsa, onda, məsələn, beynəlxalq hüquqda və bir çox ölkələrin milli qanunvericiliyində nəzərdə tutulan ən təhlükəli cinayətlərdən biri olan soyqırım əməllərinə görə cinayət məsuliyyəti yaşı olaraq 14 yaş müəyyən edilərdi [4, c.50-51].

Postsovet ölkələrinin əksəriyyətində (Özbəkistan istisna olmaqla) 14 yaşına çatmamış şəxs cinayət məsuliyyətinə cəlb oluna bilməz. Belə bir yanaşma bu kateqoriyalı şəxslərin öz davranışlarında sosial normaları nəzərə almağı bacarmamaları, öz hərəkətlərinə görə məsuliyyət daşımaq iqtidarında olmamaları ilə bağlıdır. Qanunvericiliklə bu şəxslərin, yəni cinayət törətmiş və cinayət məsuliyyətinə cəlb edilməmiş və cəzaya məruz qalmamış uşaqların və yeniyetmələrin hüquqi müdafiəsi nəzərdə tutulmuşdur [5, c.43].

Postsovet məkanına digər pəncərələrdən baxmaq üçün bir az uzaqlaşıb Avropa ölkələrinə nəzər salsaq, görərik ki, Fransanın 1992-ci il tarixli CM-in 122.8-ci maddəsi birbaşa olaraq cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddini müəyyən etməyərək, bu məsələdə "yetkinlik yaşına çatmayan hüquq pozucuları haqqında" 2 fevral 1945-ci il tarixli Qanuna istinad verilir [6, c.75-79]. Bu qanunda isə yetkinlik yaşına çatmayanların bu qruplar üzrə differensiasiyası aparılmışdır: 13 yaşınadək uşaqlar, 13-16 yaşda olan şəxslər, 16-18 yaşda olan şəxslər [7, c.339-352]. Qanunda göstərilir ki, cinayət törətmiş yetkinlik yaşına çatmayan bu qanuna uyğun olaraq cinayət məsuliyyətinə cəlb oluna bilər. Məcəllənin bu maddəsinə uyğun olaraq, xüsusi normativ-hüquqi aktda yaşı 13-dən yuxarı olan yetkinlik yaşına çatmayanlara müəyyən şərtlər daxilində cəzanın təyini nəzərdə tutula bilər [8, c.201]. Deməli, Fransa cinayət qanunvericiliyinə görə 13 yaşı tamam olmuş yetkinlik yaşına çatmayanlar üçün cinayət məsuliyyəti yarana bilər.

Polşa CM-in 10.1-ci maddəsində cinayət məsuliyyətinə cəlb etməyə imkan verən ümumi yaş kimi 17 müəyyən olunmuş, yalnız bəzi ağır və xüsusilə ağır cinayətlərə görə 15 yaşında məsuliyyətin yaranması mümkün hesab edilmişdir [9, c.15]. Bir sözlə, Polşa CM-də yetkinlik yaşına çatmayanların məsuliyyətinin differensiasiyası haqqında məsələnin həlli zamanı törədilmiş cinayətə görə yuxarı yaş həddi 17 kimi müəyyən edilsə də, eyni zamanda 9 cinayət üzrə məsuliyyət yaradan yaş həddi 15 yaş nəzərdə tutulmuşdur [10, c.172]. Bu zaman cinayət qanunu ilə məsuliyyət nəzərdə tutulan əməli törətmiş 15 yaşına çatmış yeniyetmə, işin halları, həmçinin onun inkişaf səviyyəsi, şəxsiyyəti ilə bağlı xüsusiyyətləri və həyat şəraiti nəzərə alınmaqla, xüsusən də əvvəllər ona münasibətdə tətbiq olunan tərbiyəvi və islah tədbirləri heç bir nəticə vermədikdə cinayət məsuliyyəti daşıya bilər (CM-in 2-ci paraqrafın 10-cu maddəsi) [11, c.21].

## YEKUN

Müqayisəli-hüquqi təhlil əsasında deyə bilərik ki, xarici ölkələrin milli qanunvericiliklərinin müxtəlifliyini nəzərə almaqla kifayət qədər şərti olaraq cinayətin subyektinin yaşının müəyyən olunmasına sistemli və fərqləndirici kimi iki nöqteyi-nəzəri ayırmaq olar. Belə təsnifat bir sıra meyarlara əsaslanır; cinayət tərkibi, ağlabatanlıq prinsipinin reallaşdırılması və cinayət məsuliyyəti rejimi [12, c.86]. Sistemli yanaşma Almaniya, Fransa, Çex Respublikası, Polşa və

**AUDİT 2025, 4 (50), səh. 132-142.**
**AUDIT 2025, 4 (50), pp. 132-142.**
**АУДИТ 2025, 4 (50), стр. 132-142.**

sair kimi ölkələr üçün xarakterikdir. Bu yanaşmada CM-də və ya xüsusi qanunda cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi təsbit olunur. Fərqləndirici yanaşma məhkəmənin mülahizəsinə əsasən cəzanın təyininə differensiallaşdırılmış yanaşmaya əsaslanır. Nümunə kimi Belçika, Danimarka və digər ölkələri qeyd edə bilərik. Postsovet ölkələrində bu məsələyə sistemli şəkildə yanaşılır. Sözsüz ki, bu yanaşma törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsindən və cinayət tərkibindən asılı olaraq cinayətin subyektinə vahid tələbləri reallaşdırmağa imkan verir. Bununla belə bu halda o, yaş meyarından asılı olaraq cəzanın fərdiləşdirilməsinin inkar edilməsini doğurur, məhkəməyə yetkinlik yaşına çatmayanın intellektual və psixi inkişaf xüsusiyyətlərini tam şəkildə nəzərə almağa şərait yaratmır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. https://constcourt.gov.az/az/legislation/5
2. Андрюхина Н. Проблемные аспекеты реализации уголовной политики в отношении несовершеннолетних//Уголовное право. 2017. №4
3. Уголовное право РФ. Общая часть: учебник/Под ред. Грачевой Ю.В. М.: Проспект, 2019; Хромова Н.М. Возраст уголовной ответственности несовершеннолетних//Журнал уголовного права. 2018. №4
4. Трапаидзе К.З. Возраст, с которого наступает уголовная ответственность: спорные вопросы законодательства и практики применения// Lex russica. 2022. Том 75. №2
5. Федонкина А.А. Категория возрастной незрелости в юридическом контексте//Психологическая наука и образования. 2014. №3
6. Уголовный кодекс Франции. СПб., 2002
7. Уголовное право зарубежных стран. Общая и Особенная части./под ред. Козочкина И.Д., М., 2010
8. Крылова Н.Н., Серебрянникова А.В. Уголовное право зарубежных стран (Англии, США, Франции, Германии). Учебное пособие. М., 1998
9. Уголовный кодекс Республики Польша/Науч.ред. Кузнецова Н.Ф., Лукашов А.И.. Перевод Барилович Д.А.. СПб., 2001
10. Ускова Т.В., Смирнова А.М., Герасимова Е.В. Назначение наказания несовершеннолетним по законодательству некоторых европейских стран//Журнал прикладных исследований. 2023
11. Антонова Е.Ю. Субъект преступления: учебное пособие. Владивосток, 2023
12. Уголовное право зарубежных государств. Общая часть: учебное пособие/Под ред. Козочкина И.Д. М., 2003

**AUDİT 2025, 4 (50), səh. 132-142.**
**AUDIT 2025, 4 (50), pp. 132-142.**
**АУДИТ 2025, 4 (50), стр. 132-142.**

*Anar Ilyas Javadov,*
*Ph.D. (Law),*
*Head teacher at Shamakhi branch of*
*Azerbaijan State Pedagogical University,*
*Head teacher at National Aviation Academy*
*ORCID ID: 0009-0007-0929-6310*
*E-mail: vekil_anar@mail.ru*
*© A.I. Javadov, 2025*

# THE AGE THRESHOLD FOR THE IMPOSITION OF CRIMINAL LIABILITY IN THE POST-SOVIET CONTEXT

## A B S T R A C T

**The purpose of the research** – to provide a comparative analysis of the emergence and development of juvenile delinquency.

**The methodology of the research** – the study conducted analyses based on available statistical data on criminal acts committed by minors.

**The practical importance of the research** – the results obtained during the research can be used as theoretical and practical material in law-enforcement activities.

**The results of the research** – consists of analyzing and evaluating scientific data obtained through scientific research into juvenile delinquency.

**The originality and scientific novelty of the research** – this study reflects a new way of thinking about the analysis of juvenile crime indicators.

**Keywords:** post-soviet, crime, 14 years old, criminal code, responsibility, act, minors.

**AUDİT 2025, 4 (50), səh. 132-142.**
**AUDIT 2025, 4 (50), pp. 132-142.**
**АУДИТ 2025, 4 (50), стр. 132-142.**

*Джавадов Анар Ильяс оглу,*
*доктор философии по праву,*
*старший преподаватель Шемахинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета,*
*старший преподаватель Национальной Авиационной Академии*
*ORCID ID: 0009-0007-0929-6310*
*E-mail: vekil_anar@mail.ru*
*© Джавадов А.И., 2025*

# ВОЗРАСТНОЙ ПОРОГ ПРИВЛЕЧЕНИЯ К УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ В ПОСТСОВЕТСКОМ ПРОСТРАНСТВЕ

## Р Е З Ю М Е

**Целью исследования –** является сравнительный анализ возникновения и развития преступности несовершеннолетних.

**Методология исследования –** в ходе исследования был проведен анализ на основе имеющихся статистических данных о преступных деяниях, совершенных несовершеннолетними.

**Практическая значимость исследования –** полученные в ходе исследования результаты могут быть использованы в качестве теоретического и практического материала в правоохранительной деятельности.

**Результаты исследования –** представляют собой анализ и оценку научных данных, полученных в ходе научных исследований преступности среди несовершеннолетних.

**Оригинальность и научная новизна исследования –** отражен новый подход к анализу показателей преступности несовершеннолетних.

**Ключевые слова:** постсоветский, уголовный кодекс, 14 лет, уголовный кодекс, ответственность, деяние, несовершеннолетние.

*Məqalə redaksiyaya daxil olmuşdur: 11.07.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 08.09.2025*
*Çapa qəbul olunmuşdur: 12.11.2025*

*Дата поступления статьи в редакцию: 11.07.2025*
*Отправлено на повторную обработку: 08.09.2025*
*Принято к печати: 12.11.2025*

*The date of the admission of the article to the editorial office: 11.07.2025*
*Send for reprocessing: 08.09.2025*
*Accepted for publication: 12.11.2025*